# SPORTSMAN

№ 156 / 2025 / 10 manat
www.sportsman.az
Jurnal 2004-cü ildən nəşr olunur

# “ZƏFƏR 2024”

## BEYNƏLXALQ İDMAN MÜKAFATI











NAVIGARE
50%
ENDİRİM
Azərbaycan, Bakı, AZ 1069
Məmməd Araz küçəsi 34C
Tel.: (+944 12) 440 87 68
Mob.: (+944 55) 697 49 41






SUPER KUPON 30% ENDİRİM

(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

www.offissa.com

salon@offissa.com

offissa.dizayn
Offissa Dizayn
Offissa Dizayn

NTC
LLC
New Technology Corporation

22
İL SİZİNLƏ

İNFORMASİYA TEXNOLOGİYALARI SAHƏSİNDƏ ƏN YENİ HƏLLƏR!



TIMSPORT






İDMAN KOMPLEKSLƏRİNİN
TİKİNTİSİ VƏ TƏCHİZATI

Azərbaycan, Bakı ş. AZ1033,
Heydər Əliyev pr., 42a
Tel: +99412 567 72 92
Mob: +99450 252 72 92
e-mail: timsport@timsport.az
www.timsport.az

**Bioloji Təbabət**
İnteqrativ Müalicə Mərkəzi

**SAĞALMAYAN XRONİKİ XƏSTƏLİKLƏRƏ YENİ BİR ÇIXIŞ YOLU!**

www.btk.az



**İNTEQRATİV MÜALİCƏ METODLARI İLƏ BÜTÜN XƏSTƏLİKLƏRDƏN AZAD OLA BİLƏRSƏN!**

(012) / (050)
(055) / (070) **430 89 89**

3 mkr., Pişəvəri küç. 110
(Cavadxan küç. 24)

# BU SAYIMIZDA




"ZƏFƏR 2024" BEYNƏLXALQ İDMAN MÜKAFATI

səh.6



"ZƏFƏR 2024"ün QALİBLƏRİ

səh.7



QONAQLAR

səh.12



BƏXTİ GƏTİRƏNLƏR

səh.32



NƏĞMƏLİ QONAQLAR

səh.34



İDMANIN DOSTLARI

səh.38



FASHION SHOW

səh.40




TOFİQ BƏHRAMOV - 100

səh.40



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 23 45
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nın və İdman.biz saytının materiallarından istifadə edilib.

***Üz səhifədə:***

Aydın Ağabəyov - İlqar Paşazadə,
Vasif Əhədov - Allahverdi Rüstəmov,
Tərlan Poladov - Fidan Məmmədova,
Vaqif Sadıqov - Qüdrət Qarayev



# "ZƏFƏR 2024"
## BEYNƏLXALQ İDMAN MÜKAFATI

*24 yanvar 2025-ci il, möhtəşəm "Fairmont" hotelin "Nizami Gəncəvi" zalı. Hər il olduğu kimi bu il də yanvar ayının sonu "Sportsman" jurnalı öz oxucularının görüşünə gəldi. Görüşdə jurnalın xüsusi mükafatı olan və ardıcıl 17 il keçirilən "Zəfər-2024" Beynəlxalq İdman Mükafatının təqdimetmə mərasimi də keçirildi. Tədbirdə, 2024-cü ildə yüksək nəticələr qazanmış idmançılar, məşqçilər, hakimlər, idman mütəxəssisləri, Azərbaycan idmanının inkişafına, təbliğinə dəstəyini əsirgəməyən insanlar layiq olduqları "Zəfər" Mükafatına sahib oldular. Mərasimin daimi aparıcısı olan həmkarımız Sənan Şəfizadənin giriş sözündən sonra "İdman TV"nin xüsusi hazırladığı "2024-cü ilin idman uğurları" telejurnalı ötən ilin idmançılarımız üçün uğurlu olduğunu bir daha təsdiq etdi. Qonaqları salamlayan "Sportsman" jurnalının baş redaktoru, əməkdar jurnalist Rəşad Qəmərşahoğlu qalibləri təbrik edərək – "Bizə qələbə yaraşır!" şüarı ilə bütün idmançılarımıza 2025-ci ildə möhtəşəm qələbələr arzuladı.*

*Təqdimetmə mərasimi furşet, estrada ulduzlarının çıxışları, rəngarəng rəqslər, uduşlu lotereya oyunları, yeni Hyundai "CUSTIN" avtomobilinin nümayişi və "Fashion Show" ilə davam etdi.*

***P.S. "Sportsman",** tədbirin keçirilməsində göstərdikləri dəstəyə görə Azərbaycan idmanının dostları olan – müasir və rahat, hər zövqə uyğun ofis mebelinin tək ünvanı olan DAİMİ TƏRƏFDAŞIMIZ – Baş Sponsonorumuz **"Offissa Dizayn"a,** ecazkar **"HYUNDAİ"** avtomobillərini təqdim edən DAİMİ TƏRƏFDAŞIMIZ **"AUTO AZƏRBAYCAN"a,** idmansevərlərin sevimli butiki olan **"TİMSPORT"a,** DAİMİ TƏRƏFDAŞIMIZ **"BİOLOJİ TƏBABƏT"** klinikasına, keyfiyyəti ilə fərqlənən **"ROSKO"** halal ət məhsullarına, DAİMİ TƏRƏFDAŞIMIZ hər kəsi gümrah edən **"SLAVYANKA"** Gədəbəy mineral sularına, hər birimizin istifadə etdiyi **"DELTA MAX"** məhsullarına, suyumuzu şirin edən **"Filtrex"** su filtrlərinə, bəylərin xüsusi seçdiyi **"SCALLEZİONİ"** İtaliya kişi geyimləri butikinə, dadlı tortları və şirniyyatları ilə süfrələrimizin bəzəyi olan DAİMİ TƏRƏFDAŞIMIZ **"İZ"** kulinariyaya, nənələrimizin bişirdiyi kompotların dadını verən DAİMİ TƏRƏFDAŞIMIZ **"BARLI"** kompotlarına, 30 il xidmət göstərən - ən dadlı və ən geniş dondurma çeşidi təqdim edən **№1 DONDURMA EVİNƏ**, yüksək keyfiyyətli çəkilişlərinə görə **"MİR"** Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndiliyinə və **"RAVİN ALİYEV PRO"** qrupuna, eləcə də bu günkü tədbirə ev sahibliyi edən - Bakının müasir simvolu olan **"FAİRMONT"** hotelinə xüsusi təşəkkürlərimizi bildiririk.*

# QALİBLƏR

1. İLİN İDMANÇILARI – HİDAYƏT HEYDƏROV, ZELİM KOTSOYEV
2. İLİN ƏZMKAR İDMANÇISI – QAŞIM MAQOMEDOV
3. İLİN İDMAN REKORDU – ELDƏNİZ ƏZİZLİ, LAMİYƏ VƏLİYEVA
4. İLİN MƏŞQÇİSİ – NƏRİMAN ABDULLAYEV
5. İDMANIMIZIN GƏLƏCƏYİ – QÜDRƏT QARAYEV
6. İLİN İDMAN HAKİMİ – AYDIN AĞABƏYOV
7. İLİN İDMAN BUTİKİ – TİMSPORT
8. İLİN FUTBOL QOLU – TORAL BAYRAMOV
9. İLİN FİTNESS KLUBU – THE GYM
10. İLİN İDMAN APARICISI – ARİFƏ LƏTİFOVA (CBC SPORT)
11. İLİN İDMAN APARICISI – MURAT EKREM ÇİMEN (TRT SPOR)
12. İLİN İDMAN VERİLİŞİ – 30 DƏQİQƏ (İDMAN TV)
13. İLİN İDMAN PORTALI – REPORT.AZ
14. İLİN İDMAN HƏKİMİ – FİDAN MƏMMƏDOVA (SOLİDMED)
15. İLİN İDMAN FOTOQRAFI – MİRAĞA ƏLİYEV
16. OLİMPİYAÇILARIMIZA HƏSR OLUNAN FİLMLƏRİN ÇƏKİLİŞİNƏ GÖRƏ – ARZU QULAMOV
17. AZƏRBAYCAN İDMANININ TƏBLİĞİNDƏKİ XİDMƏTLƏRİNƏ GÖRƏ – SPACE TV
18. AZƏRBAYCAN İDMANININ İNKİŞAFINDAKI XİDMƏTLƏRİNƏ GÖRƏ – GEORGE GANCHEV




idman jurnalınız
SPORTSMAN
"ZƏFƏ
BEYNƏLXALQ İDMAN
2024
dizayn
SSA
SLAVYANKA


ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
sizin idman
SLAVYANKA
RAF GROUP consulting
Herbes
RosKo
HYUN




BEYNƏLXALQ İD
SPORTSMAN


BEYNƏLXALQ İDMAN MÜKAFATI
24


BEYNƏLXALQ İDMAN MÜ
2024


MÜKAFATI
dizayn


sizin idman jurnalınız
BEYNƏLXALQ İDM


MÜKAFATI
21 il sizinlə


SPORTSMAN
21 il
2024
dizayn
Bioloji


2024
dizayn


sizin idman
21 il
BEYNƏLXALQ İDMAN
2024


sizin idman jurnalınız
SPORTSMAN
21 il


sizin idman jurnalınız
21 il


sizin idman jurnalınız
21 il

# QALİBLƏR


2024


TIM SPOR


sizin idman jurnalınız


BEYNƏLXALQ İDMAN MÜKAFATI


SPORTSMAN
2024


HYUNDAI


"ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024


"ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024

# QONAQLAR




"ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
"ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024


2024








2024



# QONAQLAR



"ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
Offissa
Global Human Resource Solutions
ÖzGədəbəy
BrendSport
Bioloji Təbabət
RosKo





MÜKAFATI
21 il
BEYNƏL




dizayn
Offissa


MÜKAFATI




MÜKAFATI
NTC
New Technology
Corporation


Offissa




Offissa


Offissa
NTC




NTC






DeltaMax


Offissa
dizayn
Offissa




Offissa
dizayn
Offissa




Offissa



# QONAQLAR



















# QONAQLAR






















# QONAQLAR





















New Technology
Corporation





# QONAQLAR


BEYNƏLXALQ İDMAN MÜKAFAT
2024
Offissa
RosKo
DeltaMax


NƏLXALQ İDMAN MÜKAFATI
2024


“ZƏFƏR”
BEYNƏLXALQ İDMAN MÜKAFATI
Offissa




BEYNƏLXALQ İDMA
202


İDMAN MÜKAFATI




“ZƏFƏR”
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
“ZƏFƏR”
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024


2024
2024


“ZƏFƏR”
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
“ZƏFƏR”
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024




"ZƏFƏR"
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024

# QONAQLAR


2024
2024
Offissa dizayn
Global Human Resource Solutions
ÖzGədəbəy
İNTEQRATİV TƏBABƏTDƏ ELMİ ARAŞDIRMALAR MƏRKƏZİ
BrendSport
SLAVYANKA
Bioloji Təbabət
RosKo
barlı


“ZƏFƏR”
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
“ZƏFƏR”
2024


Offissa


















“ZƏFƏR”
sizin idman jurnalınız
SPORTSMAN
“ZƏFƏR”
BEYNƏLXALQ
MÜKAFATI
RosKo

# QONAQLAR








sizin idman jurnalınız
SPORTSMAN
21 il sizinlə
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
Offissa
dizayn
AUTO
DeltaMax
company
RosKo
AUTO
AZERBAIJAN


2024
dizayn


BEYNƏLXALQ İDMAN MÜKAFATI
Freedom
RosKo

# BƏXTİ GƏTİRƏNLƏR













SPORTSMAN
BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024
Offissa
RosKo


sizin idman jurnalınız
Offissa
HYUNDAI



# NƏĞMƏLİ QONAQLAR













RTSMAN


SPORTSMAN
Offissa


BEYNƏLXALQ İDMAN MÜKAFATI
2024

# NƏĞMƏLİ QONAQLAR










Offissa
FILTREX
NTC




CUSTIN


Heel


RosKo


barlı

# İDMANIN DOSTLARI


















SPORTSMAN
“ZƏFƏR”
Offissa
NTC


VİZYON
PROSESİ


BAKI
SUMQAYIT
GÖYÇAY
MASALLI


RAVIN ALIYEV PRO
Media
DAVAMLI BƏRPAYA
GEDƏN YOL
Traumeel
-Heel


YENİ
VİZYO


RAVIN ALIYEV
DAVAMLI BƏRPAYA
GEDƏN YOL
Traumee




DAVAMLI BƏRPAYA
GEDƏN YOL


DAVAMLI BƏRPAYA
GEDƏN YOL


ROSKO
DAVAMLI BƏ
GEDƏN YOL





"Sportsman" "Fashion Show"nun keçirilməsində göstərdikləri dəstəyə görə "KMF Production"ının rəhbəri Könül Sultanovaya, "AISHA" gəlinlik butikinə, "Adel Beauty Center"in rəhbəri stilist Adel Qocayevaya və "Fenomen Akademiyası"nın rəhbəri stilist Burhan bəyə xüsusi təşəkkürlərini bildirir.




# TOFİQ BƏHRAMOV - 100

***Dünya şöhrətli azərbaycanlı futbol hakimi Tofiq Bəhramovun anadan olmasının 100-cü ildönümü qeyd olunub. Bu münasibətlə AFFA rəhbərliyi və futbol ictimaiyyətinin nümayəndələri onun məzarını ziyarət ediblər. Əfsanəvi referinin məzarı üstünə gül çələngi qoyulub.***

Tofiq Bəhramov 1925-ci il yanvarın 29-da Ağdamda anadan olub. Futbol tarixinə "Qızıl fit" alan yeganə laynsman kimi düşən Tofiq Bəhramov futbolçu karyerasına 1940-cı ildə başlayıb. O, əvvəlcə "Spartak"ın gənclərdən ibarət komandasında çıxış edib, sonra isə "Neftçi"yə dəvət olunub. Lakin ayağından aldığı zədə nəticəsində futbolçu karyerasına erkən son qoyub. Ancaq futbolun vurğunu olan Tofiq Bəhramov sevimli məşğuliyyətindən ayrılmayıb və hakim kimi bu idman növündə fəaliyyətini davam etdirib. O, keçmiş SSRİ-də avrokubokların finalında hakimlik etmiş ilk referi kimi də tarixə düşüb.

Tofiq Bəhramova dünya şöhrəti gətirən oyun isə 1966-cı ildə İngiltərədə keçirilən dünya çempionatının final qarşılaşması olub. Almaniya - İngiltərə final qarşılaşmasında yan xətt hakimi kimi yaşıl meydanda olan Tofiq Bəhramov qarşılaşmada Cef Hörtsün qapı xəttindən keçən qolunu qeydə alıb. Daim prinsipiallığı, obyektivliyi ilə seçilən





hakim, oyundan sonra Kraliça II Yelizavetanın şəxsən təqdim etdiyi “Qızıl fit” mükafatına layiq görülüb. Bundan başqa, azərbaycanlı hakim 1972-ci ildə Qitələrarası kubokun finalını idarə edib.

Tofiq Bəhramov Azərbaycan Futbol Federasiyaları Assosiasiyası yarananda Hakimlər Komitəsinin sədri, daha sonra isə baş katib vəzifələrində çalışıb. Hazırda Respublika stadionu Tofiq Bəhramovun adını daşıyır.

Tofiq Bəhramov 1993-cü il martın 26-da dünyasını dəyişib.

AFFA-nın təşəbbüsü ilə “Azərpoçt” MMC tərəfindən Tofiq Bəhramovun 100 illik yubileyinə həsr olunmuş yeni poçt markaları dövriyyəyə buraxılıb. Yeni filateliya məhsulu 3 markadan ibarət blok şəklindədir. Burada Tofiq Bəhramovun portreti, eləcə də, hakimin fəaliyyətindən olan fotolar yer alıb.

AFFA-nın xüsusi sifarişi ilə ölkədə ilk dəfə futbol dünyasının əsas elementi sayılan futbol formalarını əks etdirən markalardan ibarət buklet də hazırlanıb.

Poçt bloku 3000, buklet isə 2500 tirajla buraxılıb. Poçt markası ilə yanaşı, 200 ədəd “Birinci gün” zərfi də hazırlanıb. Markanın müəllifi rəssam Orxan Qarayevdir.



Azərbaycanın əfsanəvi futbol hakimi Tofiq Bəhramovun 100 illiyi münasibətilə futbol veteranları və idman jurnalistləri arasında yubiley matçı da keçirilib. Gənclər və İdman Nazirliyinin Tofiq Bəhramov adına Respublika stadionu ilə birgə təşkil etdiyi qarşılaşma hakimin nəticəsi Bəhram Bəhramovun topa simvolik zərbəsi ilə başlayıb. Bir saat davam edən oyun futbol veteranlarının 8:3 hesablı qələbəsi ilə yekunlaşıb.




Tofiq Bəhramovun 100 illik yubileyi münasibətilə həmçinin “Kolizey” şadlıq sarayında xatirə gecəsi keçirilib. Tədbirə məşhur hakimin ailə üzvləri, veteran futbolçular və hakimlər, futbol ictimaiyyətinin nümayəndələri və digər qonaqlar qatılıblar. Veteran hakim Rüstəm Rəhimov, tanınmış telejurnalistlər Aydın Əliyev və Fikrət Adıgözəlli, məşhur ak-



tyor Fəxrəddin Manafov, kinorejissor Əbdül Mahmudov və digərləri çıxış edərək Tofiq Bəhramovla bağlı xatirələrini bölüşüblər.

Tofiq Bəhramovla uzun illər birlikdə çalışmış, SSRİ dövründə FİFA referisi olmuş başqa bir azərbaycanlı Rüstəm Rəhimov Azərbaycanın 20-ci əsrdə ən yaxşı hakimlərindən biri sayılır. Əfsanəvi hakimi uşaqlıqdan tanıdığını deyən Rəhimovun onunla bağlı xatirələri az deyil: “İçərişəhərdə bir məhlədə yaşayırdıq, qonşu idik. Biz məhlədə futbol oynayanda Tofiq müəllim əlində çanta ilə yanımızdan keçirdi. Onda o qədər də tanınmırdı. Mən danışıram 1958-1960-cı illərdən. Tofiq müəllim hakimliyə başlayanda mən futbol oynayırdım, tez-tez görüşürdük.

1966-cı ildə keçirilən dünya çempionatına qədər Tofiq Bəhramov SSRİ çempionatında yüksək liqanın oyunlarını idarə edirdi və artıq bizdə tanınırdı. Amma 1966-cı ildəki dünya çempionatından sonra dünyada tanındı. Həmin vaxt dünya çempionatında SSRİ-dən yalnız Tofiq Bəhramov var idi. O zaman mundiala qabaqcıl ölkələrin hakimlərini dəvət edirdilər. Final mərhələsində yan xətt hakimliyi üçün SSRİ-dən üç namizəd olub. Rusiyadan Sergey Alimov, Gürcüstandan Karlo Kolaşvili və Azərbaycandan isə Tofiq Bəhramov. O boyda SSRİ-dən təkcə Tofiq Bəhramovu seçiblər. Onu da qeyd edim ki, o vaxta qədər bizim hamımızın müəllimimiz olan Nikolay Latışev 1962-cı ildə dünya çempionatının final matçını idarə etmişdi. O, SSRİ Hakimlər Komitəsinin sədri və FİFA-da hakimlərin rəhbəri idi. Onlar ikisi SSRİ-də yeganə hakim olmuşdular ki, iki dəfə ardıcıl dünya çempionatının final mərhələsində iştirak etmişdilər. Yəni 1958, 1962-ci illərdə Nikolay Latışev və 1966, 1970-ci illərdə Tofiq müəllim. O dövr üçün bu, böyük nəticə idi.

1966-cı ildə dünya çempionatının finalında İngiltərə ilə Almaniya oyunundakı qərarı ilə Tofiq müəllim dünya futbolunun tarixinə düşdü. Biz həmişə onunla fəxr edirdik. Təbii ki, almanlar bu qərardan narazı qalıblar. Ancaq dünya çempionatı bitəndən sonra təşkil edilən böyük ziyafətdə Almaniya millisinin kapitanı Uve Zeeler Tofiq



Bəhramova yaxınlaşıb və qərarına hörmətlə yanaşdığını deyib. Bunu Tofiq müəllim özü mənə danışıb. Oyun zamanı təbii ki, hərə bir söz deyə bilərdi. Çünki final oyunun gedişində hamı emosional olur. Ancaq daha sonra hər kəs qərarın düz











olması faktı ilə razılaşıb. Tofiq müəllimin təkcə bu qərarı Azərbaycan hakimliyinə çox böyük təkan verdi. Məsələn, elə bir faktı deyim. O vaxtlar SSRİ



ilə digər böyük dövlətlərin münasibəti elə də yaxşı deyildi. Bu, futbolda da özünü göstərirdi. FİFA-nın münasibətində də bunu görmək olurdu. SSRİ hakimlərinə az təyinat verirdilər. O vaxt FİFA-nı prezidenti ingilis Stenli Rouz idi. Tofiq müəllim həmin qərarından sonra uzun illər diplomatların edə bilmədiyi işlər oldu. Bundan sonra FİFA tərəfindən SSRİ hakimlərinə də təyinatlar verildi. Yəni əvvəllər il ərzində 2-3 təyinat olurdusa, 1966-cı ildən sonra bu rəqəm 8-10-a yüksəldi. Bizim orada nüfuzumuz artdı. Bundan sonra FİFA hakimlərimizin də sayı çoxalmağa başladı".

Rəhimovun fikrincə, Tofiq Bəhramov adı Azərbaycanın indiki hakimləri üçün əsl motivasiyadır: "Mən 20 ilə yaxın Tofiq müəllimlə işləmişəm. Biz xeyli işlər gördük ki, hakimlərimiz SSRİ çempionatında iştirak etsinlər. Biz heç vaxt Tofiq Bəhramovu yaddan çıxara bilmərik. İndi hakimlik dəyişilib. VAR da var. O vaxt bunlar yox idi. Yəni indi hakimlik asanlaşıb. Çünki bir neçə yeni texnologiya var ki, hakimlərə çox kömək edir. Ancaq ümumi götürəndə Tofiq müəllimin nəticələri bir etalondur. Hakimlərimiz qarşılarına məqsəd qoymalıdırlar ki, dünya çempionatına düşsünlər. Necə ki, bir vaxtlar Tofiq Bəhramov bunu etmişdi".

Rəhimovun Tofiq Bəhramovla bağlı xatirlərində onun meydandan kənarda mülayim bir insan olduğunu görmək olur: "Tofiq müəllim çox ehtiyatlı adam idi. Yəqin ki, məsuliyyətdən irəli gəlirdi. Amma bir az çox ehtiyatlanardı. Biz Soçidə təlim-məşq toplanışında idik. O da həmişə qapı-pəncərəni bağlayardı ki, soyuq olmasın. Səhərlər bütün hakimlər durub qaçırdı. Orda da hamısı korifey hakimlər idi. Mən də ona deyirdim ki, Tofiq müəllim, siz də səhərlər Qara dənizin sahilində gəzin, qaçın. Görürsünüz, o biri hakimlər axşam içsələr də, səhərlər durub qaçırlar (gülür). O da mənim sözümə görə bir-iki dəfə durub səhərlər qaçdı və xəstələndi. Mənə dedi ki, görürsən, sənə qulaq asdım, belə oldum. Həmişə soyuqdan qorxurdu. Bu mülayim xasiyyəti insanlara qarşı münasibətində də görünürdü.

Səhv etmirəmsə, 1991-ci il idi. Moskva "Torpedo"su Daşkənddə "Paxtakor"la qarşılaşacaqdı. Oyunun baş hakimi gücrüctanlı olmalı idi. Hakim İnspektor isə Tofiq Bəhramov idi. Sonra elə oldu






ki, baş hakimi dəyişdirdilər və mən təyinat aldım. Bunu Tofiq müəllimə bildirmədim. Çünki bilirdim ki, bundan narazı olacaq. Həlledici oyun idi. Hər iki komandaya qalib gəlmək vacib idi. Biri çempion olmaq, digəri isə yüksək liqada qalmaq üçün ölüm-dirim mübarizəsi aparırdı. Eyni şəhərdən həm inspektor, həm də baş hakim təyinatı da olmurdu. Məhz bu səbəbdən Tofiq müəllimin mənim təyinatıma etiraz edəcəyini bilirdim. Ona görə də səfərə yola düşənə qədər ona bu barədə demədim. Hava limanında məni görəndə təəccübləndi. Həm də düşünürdü ki, idarəçəliyim yaxşı olmasa, mənə necə aşağı qiymət verəcək. İstəmirdi ki, tələbəsinə aşağı qiymət yazsın. Mən də ona dedim ki, narahat olma, necə idarə etsəm, o qiyməti də yaz, səndən inciməyəcəm. Elə oldu ki, mən də oyunu yaxşı idarə etdim, qonaqlar 3:1 hesabı ilə qalib gəldi. Tofiq müəllimə dedim ki, 5 yazma, 4.5 bal bəsdi. O da elə yazdı ki, deməsinlər, yerlidirlər deyə yüksək bal verir. Yəni hər işə çox böyük məsuliyyətlə və ehtiyatla yanaşırdı. Meydanda, verdiyi qərarlarda nə qədər sərt olsa da, insanlara münasibəti yumşaq idi. Böyüklə böyük, kiçiklə kiçik kimi davranmağı yaxşı bacarırdı. Bu, onun böyüklüyü idi”.

Məşhur hakimin nəvəsi Tofiq Bəhramov da Bakuplus.az saytına babası ilə bağlı xatirələrini bölüşüb.

Tofiq Bəhramov deyib ki, babası meydanda nə qədər sərt insan təsiri bağışlasa da, evdə bir o qədər mülayim, mehriban insan olub: “Biz bir yerdə yaşayırdıq. Mən baba evində anadan olmuşam. Babam işdən sonrakı vaxtını, istirahət günlərini daha çox nəvələrinə həsr edərdi. Biz Dənizkənarı Bulvarın yanında qalırdıq, axşamlar hər gün gəzintiyə çıxırdıq. Hər gün də bizə xeyli insan yaxınlaşırdı, salam verirdi, hal-əhval tuturdu. Ola bilsin ki, meydanda sərt insan təsiri bağışlayıb, amma evdə mülayim idi, uşaqla uşaq, böyüklə də böyük kimi davranırdı”.

Tofiq Bəhramovun sözlərinə görə, babası üçüncü infarktdan bir neçə gün sonra dünyasını dəyişib: “Heç yadımdan çıxmaz, onu evdən indiki Mərkəzi Xəstəxanaya aparanda dedi ki, biz aşağıda olanda nəvələrim pəncərədən əl eləsin. Biz üçüncü mərtəbədə qalırdıq. Çıxdıq, ona əl elədik. Bir-iki gün sonra isə rəhmətə getdi”.

Onun bildirdiyinə görə, hakim Tofiq Bəhramovun dəfnində izdiham yaşanıb.

Tofiq Bəhramov bildirib ki, bu gün də babasının xatirəsinə olan yüksək diqqət və ehtiram onu tam qane edir və sevindirir: “Ailəmiz də həmişə diqqət və qayğı görüb”.

Nəvə Tofiq Bəhramov gömrük orqanında çalışsa da, oğlu futbolçudur: “Oğlum Bəhram Bəhramov “Zirə” futbol klubunun 13 yaşlılardan ibarət komandasında oynayır. 7 ildir ki, futbolla məşğuldur. Qismət olsa, gələcəkdə bu sahədə ciddi uğurlar qazanar”.

***Rasim Mövsümzadə***



barlı

C vitaminli, bol meyvəli
Barlı kompotları için!




Ziya Bünyadov 2096
Bakı, Azərbaycan
info@barli.az

+99450
+99455
+99470
749 22 22

www.barli.az


DROPHOT
DROPHOT Kids
SupraVit Plus
Herbess
D3 FORTE
BRONX+ PLUS
NaturMist
DeltaMax company
+994 51 281 11 01
www.deltamax.az
Binəqədi r-nu,
Cəfər Xəndan küç.

FILTREX

# Suyunuz şirin gəlsin




Hər növ su təmizləmə sistemləri :
-Əks osmos sistemləri
-Yumuşaldıcı avadanlıqlar
-Mexaniki təmizləmə filtrləri
-Ultrafiltrasiya
-Sənaye və magistral filtrləri
-Kafe və restoranlar üçün filtrlər
-Hovuzların tikintisi və qulluğu

www.filtrex.az info@filtrex.az +994 50 224 61 04




İz Qoyan Ləzzət!


OCAQ
SPORT KLUBU
AİLƏNİZİN İDMAN OCAĞI
Övladınızın sağlam, fəal və eyni zamanda güclü olmasını istəyirsiniz? O zaman onları gimnastika məşqlərinə yazdırın. İdman məşqləri üçün rahatlıqla etibar edəcəyiniz məkan isə «Ocaq Sport» Klubudur.


JAC MOTORS
Şəhərdaxili rahat hərəkət üçün
X 200
JAC
X200
Jac Sunray 17+1
Sərfəli sərnişindaşıma həlli
SUNRAY
(051) 280-50-73
(010) 260-88-01
AUTO AZERBAIJAN